Cami ət-təvarixin Oğuznaməsi

Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

V Yazı
Oğuzlar

Oğuz sözü oklar (ok-uz) mənasındadır,əski türkcədə (z) və (uz) cəm əlaməti idi.Ok da el deməkdir.Oğuzlar VI əsrdə Göytürklərin bir qismini təşkil edərək,Selenqa və Tula çayları bölgəsində yaşayırdılar və fitrət dövründə,yəni 630-cu ildən sonra müstəqil olub Doqquz Oğuz xanlığını təşkil etmişdilər.Başbuğlarına yabğu deyirdilər.İkinci Göytürk Xaqanlığı qurulduğu zaman İltərişə məğlub olub yenə Göytürk dövlətinin əsas qismini təşkil edərək,onlarla bir eldən hesab edilirdilər.Bu məsələ Orxon yazılı daşlarında yazılmışdır.

İslam mənbələrində uyğurlardan doqquz oğuz adı ilə bəhs edilmişdir.Çünki Uyğur dövləti doqquz oğuz (ğuz) boyu və doqquz uyğur uruğundan (tayfasından) təşkil edilmişdir.

İbn əl-Əsirin yazdığına görə oğuzlar VIII əsrdə (775-785) Mavəraünnəhrə gəlmişdilər.Daha əvvəl Talas ətrafına gəlmişdilər və əsrin ikinci rübündən bəri Seyhun çayının məcrasında yerləşdilər.

İslam müəllifləri Karaçuk (Fərab) dağları ilə Xəzər dənizi arasındakı bozkıra Dəşti Oğuz demişlər.X əsrin birinci yarısında oğuzlar bir dövlət qurdular.Bu dövlətin qışlaq mərkəzi Yenikənd olub,başlarında yabğu var idi.Yabğunun canişininə külarkin və ordu komandanına da subaşı deyirdilər.

Oğuzların qərbdəki qonşuları olan peçeneq və xəzərlərlə araları yaxşı deyildi. Digər qonşuları karluklarla da savaş halında idilər.Xarəzmin yerli xalqı da oğuzların basqısı altında idi. Quzeydə qıpçaklarla bəzən savaşıb,bəzən də barışardılar.Bu oğuzlara türkmən də deyilirdi.İslam ölkələrinə mühacirət etdikdən sonra türkmən adı ilə məşhur oldular.

Yabğu zamanında oğuzlar üç ok və boz ok adı ilə dəstə və təşkilat halında yaşayırdılar.Oğuzlar 24 boydan (qəbilə) ibarət olub,hər qəbilənin özünə məxsus möhürü (tamğası) var idi.Onların adları Mahmud Kaşğarinin "Divani lüğət türk"də və Fəzlullah Rəşidəddin Həmədaninin "Cami ət-təvarixinin Oğuznamə"sində verilmişdir.

X əsrdə qıpçakların basqısı ilə yabğu dövləti süqut etdi.Bu hadisədə oğuzların mühüm bir qismini təşkil edən səlcuqların yabğudan ayrılıb cənuba köç etmələri mühüm rol oynamışdır.Yabğu dövlətinin süqutundan sonra oğuzların bir qismi Xəzərin şimalından keçərək,Qara dənizin şimalından Avropaya getdilər.Bir qisim də Xorasana,İrana,Azərbaycana və Anadoluya gəldilər.Kiçik bir qismi də öz yerlərində qaldı.Bugünki Orta Asiya türkmənləri onların övladlarıdır.

Oğuzun Diyarbəkir və Şama yürüşü

Oğuz öz ordusunu topladıqdan sonra Kürdüstana üz tutdu və üç il Kürdüstan dağlarında qaldı.Bu dağları quldurlardan təmizlədi və o tərəfləri bütünlüklə taladı.O,şəhərliləri,səhra sakinlərini öz tərəfinə çəkdi və onlara vergi təyin etdi.Buradan o Diyarbəkir tərəfə yollandı.Ərbil,Bağdad,Mosul kimi vilayətlərdən onun yanına tanınmış adamlar gəldi,il oldular və Oğuza layiq hədiyyələr və bəxşişlər gətirdilər.

Bu qış mövsümünü Dəclə çayının sahilində keçirdi.Bahar gəlincə Şam (Suriya) tərəfə yeridi və öz altı oğlunu mankala (qabaqca) göndərdi və özü də onların ardınca yolla düşdü.Onun oğulları Rakkaya çatanda şəhərin görkəmli adamları onları qarşılamağa çıxdılar.Oğuz oğullarının ardınca gəldiyi üçün onlar bu adamları onun qulluğuna göndərdilər.

Onlar Oğuzun qulluğuna gəldilər və Oğuz onları yaxşı qarşıladı.Şixnə təyin təyin edib onların şəhərinə göndərdi.Oğuz bu ölkədə haraya gedirdisə əhali öz istəyi ilə il olurdu.Təkcə türklərin Antak Şəhr (Antakya-Türkiyədə,İsgəndərundan cənubda şəhər.Oğuzlar Antakyaya "Batak Şəhr" deyirdilər) adlandırdıqları və üç yüz altı qapısı olan Antakya şəhəri tərslik edib müqavimət göstərdi.Nəticədə bir il savaşdılar və bir ildən sonra şəhəri aldılar.

Oğuz şəhərə girdi,qızıldan taxt qurub üzərində oturdu.Oğuz onunla gəlmiş doxsan minlik qoşunu arvaduşaqları ilə şəhərdə yerləşdirdi.

Sonra Misir və Dəməşqə elçilər göndərib oraya gələcəyini bildirdi.Hər elçiyə yüz nəfər qoşdu.Daha sonra Oğuz öz ordusunun hər alayından yüz əsgər ayırıb onları öz altı oğlu ilə Təkfur xanın (Bizans İmperatoru) yanına göndərdi.Oğuzun oğulları o yerlərə yaxınlaşda Təkfur Oğuzun ordusunun vəziyyəti barədə məlumat topamaq üçün oraya adam göndərdi.Onların adət və qaydalarına görə elçi kimi gələnlərə toxunulmazdı? Oğuzun oğulları Təkfurun göndərdikəri elçiləri görəndə onlarla danışdılar.Elçilər geri qayıdanda,onlar (Oğuzun oğulları) da öz elçilərini onlara qoşub,Təkfurun yanına göndərib bildirdilər ki, "Atamız Oğuz bizi mankalada (avanqard) doqquz minlik qoşunla göndərdi,özü arxada keçələ gəlir.Əgər biz bilsək ki,siz il olub,hər il xəzinəyə vergi göndərəcəksiz,biz sizə hücum etmərik.Yox əgər savaş istəsəniz hər hansı bir yer seçib,bizimlə savaşmaq üçün oraya gedin.

Altı oğuldan ən böyüyünün adı Gün idi,yəni Günəş,ikincisinin adı Ay,yəni ay (mah),üçüncüsünün adı Yulduz, yəni ulduz (setarə),dördüncüsünün adı Gök, yəni göy (aseman),beşincisinin adı Taq-yəni dağ (kuh) və altıncısının adı Dəniz,yəni dəniz (dərya) idi.

Oğuzun elçiləri Təkfurun hüzuruna gələndə onlara dedi: 'Sabah biz filan yerdə savaşacağıq".Ertəsi gün oraya gedib savaşdılar və Təkfuru basdılar.Təkfurun döyüşçülərindən çoxu qırıldı.Onlar iki gün iki gecə ta Təkfurun ölkəsinə və şəhərlərinə kimi onları izlədilər.Onlar şəhərlərdən birinin divarlarına çatanda,oranın camaatı öz aralarında qərarlaşıb Təkfuru tutdular və onu Oğuzun oğullarına verdilər.Onlar isə Təkfuru yetmiş əsgərlə Antakyaya Oğuz xaqanın hüzuruna göndərdilər.

Oğuzun oğulları paytaxta və bütün ölkəyə əl gəzdirdilər,lakin talana və adamların qırılmasına yol vermədilər.Oğuzun oğulları şəhərdən çıxdılar və onun kənarına yerləşdilər.Elçi göndərib ataları Oğuzdan xəbər aldılar: "Əgər sən Təkfuru öldürmək qərarındasansa,onda bizə əmr et, ölkəsini (onun) qarət edək,vergi və xəzinə göndərək. Bunun üçün bir işarən bəsdir.Yox əgər onu bağışlayıb, qanını tökməkdən əl çəkirsənsə,onu ölkəsini idarə etmək üçün qaytar.Əgər ona hakimiyyət vermək istəsən,xəzinəyə verəcəyi pul və vergini təyin edib,onu geri göndər.Bu yolla biz xalqın inamını qazanarıq və özümüzə tabe edərik".

Həmin elçilər Təkfuru Oğuzun qulluğuna gətirəndə,Oğuz yenə də onu döyüşün gedişi barədə və oğulları ilə onun arasında baş verənlər haqda yenidən sorğu-sual etdi.

Təkfur hər bir şey haqqında əvvəldən axıradək yerli-yataqlı danışdı.Döyüş haqda, Təkfurun ordusunun dağılması haqda. Oğuzun oğullarının onları paytaxtadək izləmələri və şəhər böyüklərinin Təkfuru tutub ona vermələri haqda.

Təkfur öz söhbətini qurtaranda Oğuz ondan soruşdu ki,onun oğullarını ölkəni qarət ediblərmi? Təkfur bildirdi ki, onların şəhəri qarət etmələrini görməyib : "Mən bilirəm ki,mən orada olduğum vaxt onlar ölkəni qarət etməmişdilər və şəhər kənarındakı səhrada qalırdılar".Oğullarının onun sözlərinə diqqətlə yanaşıb şəhəri qarət etməmələri Oğuzu sevindirdi.Əllərini sinəsinə qoyub üzünü Tanrıya tutdu və övladlarının sözündən çıxmadıqlarına, atalarının yerini tutmağa layiq olduqlarına şükr etdi.

Eşitdikləri Oğuzun ürəyindən olduğu üçün Təkfura dedi: "Sən əvvəl mənə tabe olmadınsa da,mənə qarşı çıxdınsa da,hətta bizimlə savaşdınsa da,mən yenə sənin günahını bağışlayıram.Mən səni öz ölkəni idarə etməyə göndərirəm və sənə hakimiyyət verirəm,amma bundan sonra açıq qəlblə,təmiz ürəklə itaət edin.Mən harada olsam oraya hər il vergi və pul göndərməlisiz".Bu sözləri eşidən Təkfur razılıqla baş əydi,itaət şərtlərini qəbul edib cavabında dedi: "Bütün ölkələr və məmləkətlər sənin hakimiyyətinə,sənin iradənə tabedir.Minlərlə mənim kimilər,məndən də yaxşılar sənə tabedirlər.Sənin hökmünə qarşı qoymağa mənim kimisinin qüdrəti və gücü yoxdur.Hər nə buyursan,boyun əyər,tabe olaram.Əğər Oğuz mərhəmət göstərib məni bağışlarsa,qulaqlarıma qulluq halqası keçirər və hər il sənə vergi,pul göndərər,bu sarayın itaətkar qulu olaram və Allah qoysa,mənim tərəfimdən heç bir yanlım olmaz".

Bu söhbət bitdikdən sonra Oğuz Təkfurdan Firəng və Rum ölkəsinin vəziyyəti,onların orduları yaşadıqları yerlər barədə və hansı yolla ordu göndərib o ölkələri tuta biləcəyi barədə soruşdu.Təkfur cavab verdi:Firəng ölkəsini belə tutmaq olar: Oğuz buradan onlara elçilərlə hədiyyə (bələk) və qiymətli paltarlar göndərməli,onların əyanlarının rəğbətini qazanmalı və vergi vermələrini bildirməlidir. Mən də bu haqda onlara gizli yazaram və öz elçimi oraya göndərərəm.Mən onlara anlataram ki,bu qəbilə çox güclüdür.Günəş doğandan bu ölkəyə qədər hər yeri özlərinə tabe etmişlər və heç bir canlı onların gücünə qarşı dura bilməz.İş savaşa çatmasa,siz boyun əyib çoxlu insan qırğınına yol verməsəniz,ölkə də talan edilməsə,yaxşı olmazmı? Özünüz verginin miqdarını müəyyənləşdirib ilbəil ödəyin.Onlar bununla razılaşıb,vergi verməyə razılaşacaqlar.Onlara qarşı ordu göndərmək də gərək olmayacaq.Rum ölkəsinin vəziyyətinə gəlincə onların qışlaqları dənizin yaxınlığında yerləşir,oralar çox isti olur.Sən belə hərəkət etməlisən: onlar qışlaqlara gedəcəklər,vaxt yetişəndə isə geri-yaylaqlara qayıtmaq istəyəcəklər.Onlar yaylağa dönənə qədər sənin əsgərlərin yaylağa gəlib oraları tutmalı və onlara qışlaqdan çıxmağa imkan verməməlidir.İstidən,milçəklərin əlindən qışlaqda qalmaq mümkün olmayacaq,onlar gücsüzləşib,il olmağa məcbur olacaqlar.

Təkfurun bu düşüncələri Oğuza ağıllı göründü və onu geri,öz ölkəsinin paytaxtına göndərdi.Onunla gələn elçilərlə birlikdə Təkfuru öz məmləkətinə çatdırıb padşahlıq taxtına oturtmaq üçün əllidən artıq atlı göndərdi.Öz oğullarına da ordu ilə birlikdə dönmələrini buyurdu.Oğuzun oğulları atalarının hüzuruna gəldilər.

Təkfur Oğuza çoxlu var-yatır göndərdi.Öz paytaxtına oturub belinə qulluq kəmərini bağladı.Təkfurun məmləkəti Oğuza tabe olandan sonra,o Firəng və Rum ölkəsinə yollanmağı qərara aldı.

Oğuzun öz oğullarını ordu ilə Firəng və Ruma yollaması

Təkfur il olduqdan və Firəng və Rum ölkəsinin vəziyyəti bəlli olduqdan sonra Oğuz özünün üç oğlunu-Göyü,Yulduzu və Dənizi doqquz min döyüşçü ilə Rum tərəfə göndərdi.Digər üç oğlunu –Ayı,Günü,Dağı digər doqquz min əsgərlə Firəng tərəfə yolladı.

Dəniz sahilində düşərgə salmağı,orada yaşayanlardan taqarın və ulufa verməsini (orduya) tələb etdi. Elçilər təyin edərək onları qayıq ilə Firəngə keçirməyi əmr etdi.Təkfur onlarla müttəfiq olduğundan və itaət kəmərini belinə bağladığından,Oğuzun əmri ilə onların düşərgəsi üçün dəniz kənarında gözəl bir yer ayırdı.Onlara uyğun alafa və ulufa ayırdı,elçiləri isə Firəng tərəfə göndərdi.

Elçilər oraya gəldikdə Oğuzun qiymətli paltarlarını gətirdilər və oranın əyanlarına geyindirdilər.Təkfur xana gəlincə,o irəlicədən onlara öz elçisini göndərib vəziyyəti xəbər vermiş və Oğuzun sözünə qulaq asıb qəbul etmələrini,onlara (türklərə) birləşmələrini məsləhət gördü,onlar da müqavimətsiz boyun əydilər.Buna cavab olaraq onlara pul və nadir hədiyyələr (tanayk) göndərdilər.

Onlar Oğuzun oğulları ilə görüşüb işlərini onlarla həll etməyə,pul,xəzinə və nadir hədiyyələr verməyə cəhd göstərdilər.Oğuzun oğulları bunu qəbul etməyib dedilər: 'Siz mütləq Oğuzun qulluğuna girməli,bizə gətirdiklərinizi ona təqdim etməlisiz.Vergini yalnız Oğuz özü müəyyənləşdirib təyin edə bilər.Biz qardaşlara gəlincə isə,ordu ilə birlikdə Oğuz əmr edincəyə qədər burada qalacağıq.Hələlik siz gedin Oğuzu görün,vergi haqda onunla danışar və əgər bizə də geri dönməyi əmr edərsə,biz o dəm qayıdarıq".

Onlar Oğuzun oğullarının sözlərindən dönmədiklərini görüncə gətirdikləri pulu,malı və xəzinələri götürüb Oğuzun hüzuruna yollandılar.Oğuz onların gəldiklərini bilncə döyüşçülərini yaraqlı-yasaqlı alay-alay düzdü və səhraya onları qarşılamağa göndərdi.Firənglər bu alayları uzaqdan gördülər.Firəng ölkəsindən gəlmiş bu dəstə (adam) Oğuzun alay-alay ordusunu iki-üç dəfə görüncə onu olduğundan daha çox sandılar.Firəngdən gəlmiş bu dəstə Oğuzun hüzuruna çatınca öz istəklərini söyləmək istədi.Oğuz onlara dedi: "Siz gördüyünüz bu kiçik dəstəni mankalı (avanqard) olaraq göndərmişdim.Ordumun əsas hissəsi indi buradadır,gedib görə bilərsiniz.Əgər bizə qarşı savaşa biləcəyinizi güman edirsinizsə, savaşaq.Yox əgər bizə qarşı durmağa gücünüz çatmayacaqsa tabe olmaqdan və ilbəil (hər il) inanılmış adamlar və elçilərlə bizim xəzinəmizə göndərəcəyiniz verginin,xəzinənin miqdarını təyin etməkdən başqa çıxış yolunuz yoxdur.Qəti bilməlisiniz ki,mənim ordum siz düşündüyünüzdən daha böyükdür.Əgər su və odla bizim yolumuzu kəsə biləcəyinizi düşünürsünüzsə,bilməlisiz ki, biz gələ-gələ çox dənizlər keçmişik.Beləliklə sizin çaylarınız və sularınız mənim əsgərlərimin qarşısında heç nədir.Onlar atları sala,qamçını avara döndərər,bir sal düzəldərək asanlıqla sulardan keçib ölkənizi alt-üst edərlər.

Onlar bunu eşitdikcə Oğuza dedilər: "Oğuz-ağa,əmr edin ordu geri dönsün və bizdən vergi yığmaq üçün şixnə təyin edin".Oğuz onlara dedi: "Siz ki,könüllü olaraq vergi verməyi üzərinizə götürürsünüz.Təkfur xanın yanında qoyduğumuz şixnə sizə də kifayət edər.Hər il vergini ona çatdırın,o da mənə yetirər.Hər iki aydan bir sizin uruqdan (qəbilə) yanıma bir adam gəlsin.Mən ona xələt verib geri göndərəcəm".Bu söhbət bitdikdən və verginin miqdarını təyin etdikdən sonra onları bu ölkənin adəti ilə yola saldı (Oğuz).

Bu elçilər bir başqa vaxt onun hüzuruna gələrlərsə,Oğuzun ordusunun gücünü hiss etdirmək üçün Oğuz bu dəfəki manevrləri təkrar etmək əmrini verdi.

Firəng elçiləri Oğuzun ordusunun gücünü və sayını görüb öz ölkələrinə çatınca padşahlarına bu ordunun əzəmətindən danışdılar.Padşah bu vəziyyətdən çox narahat olub,istər-istəməz üzərinə düşən vergini qəbul edib itaət və qulluq kəmərini belinə bağladı.Onlar Oğuzun səltənət taxtında padşahlıq etdiyi vaxtda da,ondan sonrakı oğulları və uruqlarının (qəbilədaşları) hakimiyyəti zamanında da vergi göndərirdilər.Oğuz onlara qarşı çıxanlarla savaşırdı.

(ardı var)